AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI

# *Maliyyə xidmətlərinin inkişafı və yaşıl maliyyələşmə*

**Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupu**

# 2023-cü il üzrə əsas nəticələr

AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI

| | Əsas nəticələr | 2023 |
|---|---|---|
| Makroiqtisadi nəticələr | **ÜDM-in artımı**<br>*Qeyri-neft ÜDM-in artımı* | **1.1%**<br>*3.7%* |
| | **Faktiki illik inflyasiya** | **2.1%** |
| | **Tədiyyə balansı** | **9 ayda 6.7 mlrd.$ həcmində profisit (ÜDM-in 12.5%-i)** |
| Maliyyə sektoru üzrə əsas nəticələr | **Maliyyə sektorunun aktivləri** | **51.9 mlrd. manat** *(+5%)*<br>*Bank: +2.1 mlrd. manat*<br>*Sığorta: + 0.24 mlrd. manat*<br>*BOKT: +0.24 mlrd. manat* |
| | **Bankların kredit portfeli** | **23.2 mlrd. manat** *(+18%, bağlanan banklar nəzərə alınmadan 25.7%)* |
| | **Bankların kapital adekvatlığı** | **18%** |
| | **Kredit portfelinin dollarlaşması** | **18.8%** *(2022-ci ildə 20.1%)* |
| | **Qeyri-işlək aktivlərin portfeldə çəkisi** | **2.6%** |

# Business Ready hesabatının «Maliyyə xidmətləri» indikatoru



İndikatorlar

**I Komponent**
Tənzimləmə çərçivəsi

**II Komponent**
Kredit infrastrukturunda məlumatların əlçatanlığı və maliyyəyə çıxış

**III Komponent**
Maliyyə xidmətlərinin əldə edilməsinin effektivliyi

**Qiymətləndirmə mövzuları**

- Dayanıqlı maliyyələşmə çərçivəsi
- Kredit büroları və reyestrlərin fəaliyyəti
- Elektron ödənişlər
- Kreditlərin əldə edilməsinin effektivliyi
- Biznes kreditləri və təminatlı əqdlər üzrə tənzimləmə çərçivəsi

# Həyata keçirilmiş təşəbbüslər

AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI

## 1. Maliyyə sabitliyi çərçivəsinin möhkəmləndirilməsi və kreditləşmənin təşviqi

- “2024-2026-cı illərdə Maliyyə sektorunun inkişaf strategiyası” təsdiq edilmişdir
- “Banklarda korporativ idarəetmə standartları” yenilənmişdir.
- “Bank olmayan kredit təşkilatları haqqında” Qanunda dəyişikliklər qəbul edilmişdir.
- Kənd təsərrüfatı kreditlərinin prudensial tənzimlənməsi çərçivəsinə yenidən baxılmış və həmin kreditlər üzrə differensial prudensial tələblərin müəyyən edilməsi üçün bəzi normativ xarakterli aktlara dəyişikliklər edilmişdir.

## 2. Maliyyə xidmətlərinin rəqəmsallaşması imkanlarının genişləndirilməsi

- “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edilmiş və 09 noyabr 2023-cü il tarixində qüvvəyə minmişdir
- Xüsusi tənzimləmə rejimi ilə bağlı “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir.

## 3. İnformasiya asimmetriyasının azaldılması

- Kredit bürosuna daxil olan məlumatların əhatə dairəsinin genişləndirilməsi məqsədilə “Kredit büroları haqqında” Qanuna dəyişiklik edilmiş və pərakəndə satıcıların (təqvim ili ərzində nisyə satılmış malların dövriyyəsi 100,000 manatdan çox olduqda) Büroya məlumat təqdim etməsi öhdəliyi müəyyənləşdirilmişdir..
- Büroya verilən neqativ məlumatlar barədə bildirişlərin kredit tarixçəsi subyektinə Büro tərəfindən ödənişsiz əsasda ötürülməsi təmin edilmişdir.
- Borcalanların skorinqi modeli təkmilləşdirilmişdir.

# Həyata keçirilmiş təşəbbüslər

AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI

## 4. Alternativ maliyyələşmə mexanizmlərinin yaradılması

- Təchizat Zəncirinin Maliyyələşdirilməsi (TZM) mexanizminin müasir tələblərə uyğun qurulması istiqamətində Beynəlxalq Maliyyə Korporasiyasının da dəstəyi ilə əlverişli hüquqi və requlyativ baza, eyni zamanda texnoloji infrastuktur formalaşdırılması istiqamətində işlər davam etdirilmişdir.

## 5. Kapital bazarlarının inkişafı

- Bakı Fond Birjasının listinqinə ilk dəfə daxil ediləcək səhmlərin emitentləri 31 dekabr 2023-cü ilədək listinq üzrə xidmət haqqından azad edilmişdir.
- 31 mart 2023-cü il tarixində yeni ticarət və ticarətsonrası elektron sistem istifadəyə verilmişdir.
- Qiymətli kağızlar bazarında əlverişli vergi mühitinin formalaşdırılması məqsədilə Vergi Məcəlləsinə dəyişikliklər edilmiş və2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə müvafiq olaraq ödənilən dividend, diskont və faiz gəlirləri vergidən azad edilmişdir.
- İstiqrazlar üzrə faiz vergisinin hesablanması beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilmişdir.

## 6. Sığorta sektorunun inkişafı

- Sığorta qanunvericiliyinə düzəlişlər layihəsi 06.07.2023-cü il tarixdə təsdiqlənmiş, müvafiq dəyişikliklə sığorta sahəsində risk əsaslı nəzarətin təmin edilməsi, sığortaçıların investisiya fəaliyyətinin tənzimlənməsi, sığorta sektorunun maliyyə dayanıqlılığına nəzarətin təkmilləşdirilməsi, təkrarsığorta əməliyyatlarına dair siyasət üzrə yeni və normativ yanaşmalar müəyyən edilmişdir.

# Həyata keçirilmiş təşəbbüslər



## 7. Yaşıl maliyyə

- Mərkəzi Bankın İdarə Heyətinin 15 fevral tarixli Qərarı ilə "Dayanıqlı maliyyə üzrə Yol Xəritəsi: 2023-2026" təsdiq edilmişdir.
- Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin icrasının effektiv aparılması və əlaqələndirilməsi məqsədilə Mərkəzi Bank və aidiyyəti qurumların məsul şəxsləri, həmçinin sektor assosiasiyaları və maliyyə institutları nümayəndələrinin təmsil olunduğu Ekspert qrupu yaradılmışdır.
- Mərkəzi Bankın İdarə Heyətinin 28.08.2023-cü il tarixli qərarı ilə təsdiqlənmiş yeni "Banklarda korporativ idarəetmə standartları"nda bankın dayanıqlığına təsir edən amillərlə bağlı müvafiq müddəalar əks etdirilmişdir.
- "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydası"nda edilmiş növbəti dəyişikliklərə əsasən istehsal ili üzrə müvafiq meyarlara cavab verən elektrik və hibrid avtomobillərin alınmasına verilmiş kreditlər üzrə borcalanın yüksək borcun gəlirə nisbəti əmsalı ilə bağlı (45%+) əlavə ehtiyatlanma tələbindən istisna edilmişdir.
- Yaşıl istiqrazlar üzrə hüquqi çərçivənin formalaşdırılması məqsədilə Mərkəzi Bank tərəfindən Mülki Məcəlləyə dəyişiklik layihəsi hazırlanmış və aidiyyəti dövlət qurumları ilə müzakirəsi davam etdirilmişdir.

## 8. Gender maliyyəsi

- Gender maliyyəsi üzrə cari vəziyyətin təsbit edilməsi istiqamətində maliyyə institutları arasında sorğu aparılmışdır.
- Qadınlara hədəflənmiş maliyyə və qeyri-maliyyə məhsullarının təklifinin artırılması, eyni zamanda qadınların maliyyə sektorunda iştirakının artırılması istiqamətində təşəbbüslər müəyyən edilmişdir.

# 2024-cü il üzrə əsas prioritetlər



- Dayanıqlı maliyyə üzrə hüquqi və requlyativ çərçivənin formalaşdırılması
- Qadınlara hədəflənmiş maliyyə və qeyri-maliyyə məhsullarının təklifinin artırılması
- Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrində axtarış üzrə infrastrukturun təkmilləşdirilməsi
- Büro/Reyestrlərin digər ölkələrin büro/reyestrləri ilə əməkdaşlığının artırılması



# 2024-cü ildə «Maliyyə xidmətləri» indikatoru üzrə görüləcək işlər

AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI



## 1 Dayanıqlı maliyyə

**Görüləcək işlər**

- ❑ Banklar tərəfindən yaşıl kredit və digər dayanıqlı maliyyə məhsullarının tətbiqinin təşviq edilməsi
- ❑ İqlim və digər ətraf mühit dəyişikliklərindən yaranan risklərin bankların risk idarəetmə sisteminə inteqrasiyasiyasına dair təlimatın qəbul edilməsi
- ❑ Yaşıl maliyyə üzrə databazasının formalaşdırılması və stres testlərin həyata keçirilməsi
- ❑ "Banklarda kredit risklərinin idarə edilməsi Qaydası"nda yaşıl kredit anlayışının müəyyən edilməsi
- ❑ Taksonomiyanın hazırlanması
- ❑ Yaşıl istiqrazlarla maliyyələşdirilən layihələrə ətraf mühitə təsir hesabatının hazırlanması tələbinin müəyyən edilməsi



## 2 Gender maliyyəsi

**Görüləcək işlər**

- ❑ Kommersiya banklarında qadınlara yönəlmiş maliyyə məhsullarının təqdim edilməsinin təşviq edilməsi və bu istiqamətdə bazar təhlillərinin aparılması
- ❑ Kommersiya banklarında qadınlara yönəlmiş qeyri-maliyyə məhsullarının təşviq edilməsi
- ❑ Bank əməkdaşları üçün şüuraltı qərəz/gender müxtəlifliyi mövzusunda təlimlərin keçirilməsi
- ❑ Bank sektorunda qadınların yuxarı rəhbərlik/idarəetmə mövqelərində iştirakını təşviq edən korporativ idarəetmə standartlarında müvafiq dəyişikliklərə dair təkliflərin hazırlanması



## 3 Biznes kreditləri və təminatlı əqdlər üzrə tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi

**Görüləcək işlər**

- ❑ Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrində girovların seriya nömrəsi ilə axtarış funksionallığının istifadəyə verilməsi



## 4 Kredit büroları və reyestrlərin fəaliyyətinin genişləndirilməsi

**Görüləcək işlər**

- ❑ Kredit bürosunun məlumatlarının xarici kredit büroları ilə bölüşülməsi üzrə yanaşmanın müəyyən edilməsi

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK!